# O gecə

***(20 Yanvar münasibətilə)***

Çoxdandı küçələr qan görməmişdi,
O gecə necə də qanlı bir gecə.
Qana yerikləyən can görməmişdi
O gecə necə də qanlı bir gecə.

Hədəfə tutmuşdu  gecədən bəri,
Sovet Bakısını sovet əsgəri.
Gecə iztirabla doğdu səhəri,
O gecə necə də qanlı bir gecə.

İlahi, o gecə məhşərdi nədi?
Əllər başımıza güllə ələdi.
Neçə dərd köynəyi qəm düymələdi...
O gecə necə də qanlı bir gecə.

Tuş olduq bәlaya neçin, nәdәn biz?
Bәdәnsiz baş gördük, başsız bәdәn biz,
Sarsıldıq o gecә işgәncәdәn biz,
O gecә necә dә qanlı bir gecә.

Necә bәla idi, bu necә zülüm,
O gecә cәfaydı, o gecә zülüm,
Bir dә elә gecә görmәsin elim,
O gecә necә dә qanlı bir gecә.

Gülәmail